## Sudan İstifadəedənlər Birliklərinin fəaliyyəti və suvarma suyundan ödənişli istifadə haqqında

## T Ə L İ M A T

### Meliorasiya və irriqasiya haqqında Azərbaycan Respublikasının Qanununa istinad:

“Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikası Qanununa əsasən Meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı müəyyən olunmuş qaydada təsdiq edilən əsasnaməyə uyğun fəaliyyət göstərir. Meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanının səlahiyyətləri:

1. Birliyin xidmət göstərdiyi ərazidə yerləşən torpaqların istifadəçiləri istisna olmaqla, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinin və uzunmüddətli sazişlərə uyğun olaraq Birliklərin suvarma suyu ilə təchiz edilməsi;
2. meliorasiya və irriqasiya sahəsində respublika və regional (rayon) proqramların hazırlanması və həyata keçirilməsi
3. meliorasiya və irriqasiya tədbirlərinin maliyyələşdirilməsinin təşkili;
4. Birliklərin istifadəsində olan sistemlər istisna olmaqla, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarının təşkili;
5. su obyektlərindən götürülən suların müəyyən edilmiş qaydada bölüşdürülməsi və sudan istifadəyə nəzarət edilməsi;
6. meliorasiya və irriqasiya sistemlərinin pasportlaşdırılması və kadastrının aparılması;
7. suvarılan və meliorasiya olunmuş torpaqların uçotunun təşkili və monitorinqinin aparılması;
8. meliorasiya və irriqasiya sahəsində standartların, normaların və qaydaların işlənib hazırlanması;
9. meliorasiya və irriqasiya sistemləri layihələrinin dövlət ekspertizasının aparılması, onların təsdiq edilməsi;
10. meliorasiya və irriqasiya sahəsində elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin təşkili;
11. suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətinə, meliorasiya və irriqasiya sistemlərinin istismarına nəzarət;
12. Sudan İstifadəedənlər Birliklərin fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi

Birliyin fəaliyyətinə dövlət nəzarəti “Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikası Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanı (bundan sonra - dövlət nəzarəti orqanı) tərəfindən həyata keçirilir.

Dövlət nəzarəti orqanı Birliklərin reyestrini aparır, meliorasiya və irriqasiya sistemlərinin istismarı üzrə monitorinqi keçirir, texniki, hüquqi və iqtisadi məsələlər üzrə məsləhət yardımı göstərir.

Birlik ümumi yığıncaq tərəfindən təsdiq edilən illik balansı, hesabatı və müəyyən edilmiş formada digər hesabatları, habelə öz üzvlərinə və üzvü olmayan şəxslərə verdiyi suyun qiymətinin (su haqlarının) əsaslandırılmasını dövlət nəzarəti orqanına təqdim etməlidir.

Birlik tərəfindən əsassız olaraq həddən artıq yüksək və ya aşağı su haqları müəyyən edildikdə dövlət nəzarəti orqanı Birlik qarşısında su haqlarının miqdarına yenidən baxmaq barəsində məsələni qaldıra bilər.

Dövlət nəzarəti orqanı təqdim olunmuş sənədlərdə uyğunsuzluqlar, şübhəli və natamam məlumatları aşkar edərsə və ya üzvlərin pozuntular haqqında əsaslandırılmış ərizəsi daxil olarsa, Birliyin fəaliyyətini yoxlaya bilər.

Birliyin fəaliyyətinin yoxlanması nəticəsində ciddi pozuntular aşkar edilərsə, dövlət nəzarəti orqanı müvafiq qərarın qəbul edilməsi üçün idarə heyətindən ümumi yığıncağın çağırılmasını tələb edə bilər. İdarə heyəti 30 gün ərzində ümumi yığıncağı çağırmaqdan boyun qaçırarsa, dövlət nəzarəti orqanı idarə heyətini işdən kənarlaşdırır və ümumi yığıncağı çağırır. İdarə

heyəti yeni tərkibdə seçilənədək Birlik dövlət nəzarəti orqanının təyin etdiyi müvəqqəti rəhbər tərəfindən idarə olunur.

Meliorasiya və irriqasiya sistemlərinin istifadəsi zamanı su münasibətləri Azərbaycan Respublikasının su qanunvericiliyi ilə tənzimlənir.

Su ehtiyatlarından səmərəli istifadə olunması, su təminatına yönəldilmiş dövlət xərclərinin ödənilməsi, suyun dəqiq uçotunun aparılması məqsədi ilə sudan ödənişli istifadə tətbiq edilir. Sudan ödənişli istifadə qaydaları Azərbaycan Respublikasının Su Məcəlləsinin 97-ci maddəsinə uyğun olaraq müəyyən edilir.

Sudan ödənişli istifadənin məqsədi su təminatına yönəldilmiş dövlət xərclərini ödəmək, su təsərrüfatı müəssisələrinin, idarələrinin və təşkilatlarının özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərməsini təmin etmək, su ehtiyatlarından səmərəli və qənaətlə istifadə olunmasına və suların mühafizəsinin yaxşılaşdırılmasına maddi maraq yaratmaq, suyun dəqiq uçotunu aparmaq və su təsərrüfatı sahəsinə investisiya qoyuluşunu stimullaşdırmaqdan ibarətdir.

## Birliklər haqqında qısa məlumat

1997-2003-cü illərdə Dünya Bankının vəsaiti hesabına maliyyələşdirilən “Təsərrüfatların özəlləşdirilməsi layihəsi” çərçivəsində respublikanın 6 rayonunda nümunəvi özəl təsərrüfatlar yaradılmışdır. Bu özəl təsərrüfatlarda suvarma və drenaj şəbəkələri bərpa edilmişdir. Respublikada Sudan İstifadəedənlər Assosiasiyaları 1998-ci ildə bu təsərrüfatlarda yaradılmışdır.

Bu Assosiasiyaların nizamnaməsi və normativ-hüquqi sənədləri Kənd Təsərrüfatının Özəl Bölməsinin İnkişafına Yardım Agentliyi tərəfindən Dünya Bankının cəlb etdiyi beynəlxalq mütəxəssislərin iştirakı ilə hazırlanmışdır. Bu sənədlər Respublika Aqrar islahatı komissiyası tərəfindən bəyənilmiş və onun Azərbaycan Respublikasında tətbiq edilməsi tövsiyə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 9 noyabr 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş “1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı”nda ölkədə Sudan İstifadəedənlər Assosiasiyalarının yaradılmasının mühüm əhəmiyyət kəsb etdiyi göstərilmişdir.

Bütün bunlar nəzərə alınaraq, 2000-ci ildən başlayaraq respublikada Sudan İstifadəedənlər Assosiasiyalarının yaradılmasına başlanılmışdır. Həmin zaman Meliorasiya və Su Təsərrüfatı Komitəsinin metodiki köməkliyi ilə respublikada 500-dən artıq Sudan İstifadəedənlər Assosiasiyaları yaradılmışdır.

Sonradan Sudan İstifadəedənlər Assosiasiyalarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə, Dünya Bankının tələbi və beynəlxalq məsləhətçilərin təklifləri əsasında 2004-cü ildə “Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq dəyişikliklər və əlavələr edilmişdir. Qanuna Sudan İstifadəedənlər Birliyi haqqında yeni fəsil əlavə edilmiş, Assosiasiyaların adı dəyişdirilərək Sudan İstifadəedənlər Birliyi adlandırılmış, onların hüquqi statusu müəyyən edilmişdir.

Sudan İstifadəedənlər Birliyinin məqsədi xidmət göstərdiyi ərazidə istifadəsində olan meliorasiya və irriqasiya sistemlərini idarə etmək və torpaq istifadəçilərini mütəşəkkil, səmərəli və ədalətli olaraq su ilə təmin etməkdir.

Birliyin xidmət göstərdiyi ərazi onun istifadəsində olan meliorasiya və irriqasiya sistemindən suvarıla bilən müəyyən torpaq sahələrini əhatə edir.

Birlik bu “Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikası Qanununa, digər normativ hüquqi aktlara və öz nizamnaməsinə uyğun olaraq qeyri-kommersiya qurumunun xüsusi formasında yaradılır və fəaliyyət göstərir.

Birlik öz fəaliyyəti nəticəsində əldə etdiyi mənfəəti üzvləri arasında bölüşdürmədən istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin saxlanmasına və inkişafına yönəldir və bu məqsədlə fond yaradır. Birliyin xidmət göstərdiyi ərazidə yerləşən torpaqların üzərində mülkiyyət və ya ən azı üç il müddətində istifadə hüququ olan fiziki və hüquqi şəxslər Birliyin üzvü ola bilərlər.

**Birliyin üzvlərinin aşağıdakı hüquqları var:**

- sudan ədalətli pay almaq və Birliyin göstərdiyi xidmətlərdən istifadə etmək;
- su haqqını ödədiyi təqdirdə səsvermədə iştirak etmək;
- Birliyin orqanlarına namizədləri irəli sürmək və seçilmək, ümumi yığıncağın gündəliyinə dair təkliflər vermək;
- Birlik tərəfindən onlara vurulan zərərin əvəzini almaq;
- Birliyin mühasibat kitabları, hesabları və digər sənədləri ilə tanış olmaq.

**- Birlik üzvlərinin aşağıdakı vəzifələri var:**

- nizamnaməyə və ümumi yığıncağın qəbul etdiyi qərar, təlimat və digər sənədlərə, o cümlədən suyun paylanması cədvəlinə riayət etmək;
- su haqlarını vaxtında və tam ödəmək;
- torpağında yerləşən hidrotexniki qurğu və avadanlıqdan istifadəyə, üzərində təmir işlərinin aparılmasına Birliyə icazə vermək;
- Birliyin qurğu və avadanlığına vurduğu zərərin əvəzini ödəmək;
- suvarılan torpaqlardan və sudan istifadə etmələrinə dair məlumatı Birliyə təqdim etmək.

## Tariflər haqqında məlumat

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə» 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli qərarı ilə təsdiq edilmiş «Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təşkil edilməsi Qaydaları»na və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının 2006-cı il 12 aprel tarixli iclasının qərarına əsasən suvarma suyunun tarifi 1000$m^3$ üçün 0,5 manat, qış otlaq sahələrinə və örüşlərə verilən su üçün 1 hektara 0,4 manat məbləğində təsdiq edilmişdir.

“Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikası Qanunununun 25-ci maddəsinə əsasən Birliklərin öz üzvlərinə və üzvü olmayan şəxslərə verdiyi suya görə haqları müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının) müəyyən etdiyi su tarifləri, habelə istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin saxlanmasına, istismarına, yaxşılaşdırılmasına və inkişafına tələb olunan xərclər nəzərə alınmaqla Birlik müəyyən edir. Bu baxımdan da Birliklər tərəfindən tərtib edilən xərclər smetası əsasında suvarma xidmət haqqı müəyyən edilir.

## Sudan İstifadəedənlər Birlikləri öz tariflərini necə müəyyən edirlər?

Respublikada fəaliyyət göstərən Sudan İstifadəedənlər Birliklərinin 1000 $m^3$ suvarma suyu üçün suvarma xidmət haqları (tarifləri) aşağıdakı meyarlar nəzərə alınmaqla hər ilin əvvəlində formalaşır:

1. Birliyin xidməti ərazisində olan su istifadəçiləri tərəfindən istifadə olunacaq suyun həcmi
2. Birlik tərəfindən dövlət büdcəsinə ödəniləcək məbləğ (1000 $m^3$ – 0,5 manat)
3. Birliyin muzdlu işçilərinə ödəniləcək əmək haqqı
4. Birliyin işçilərinin DSMF və sığorta xərcləri
5. Birliyin təmir-bərpa, dəftərxana, rabitə, nəqliyyat və bank xidmətləri xərcləri
6. Vergi xərcləri (sadələşdirilmiş vergi)
7. Birliyin ehtiyat fondu üçün ayırmalar

Göründüyü kimi, hər Birlik istifadəsində olan meliorasiya və irriqasiya sistemlərin saxlanılmasını, istismar-təmir, işçilərin əmək haqları, vergi və DSMF xərclərini təmin etmək üçün 1000 $m^3$ suvarma suyunu dövlətdən 0,5 manata alaraq daha yuxarı qiymətə satmalıdır.

## Suvarma rejimləri və normaları

Azərbaycanda kənd təsərrüfatının inkişafı bütövlükdə suvarılan əkinçilikdən asılıdır. Respublikanın ümumi torpaq fondu 8,66 mln hektardır. Coğrafi şəraitinə görə bu torpaqların 4,35 mln hektarı kənd təsərrüfatına, o cümlədən 3,2 mln hektarı suvarmaya yararlıdır. Hazırda suvarmaya yararlı torpaqların təxminən 1,45 mln hektarı suvarılır və respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarının 90-95%-i bu torpaqların payına düşür. Suvarmaya yararlı torpaqların bir hissəsinin suvarılan əkinçilikdə istifadə olunmamasının əsas səbəbi respublikada mövcud su ehtiyatlarının az olması və onlardan səmərəli istifadə olunmamasıdır. Su ehtiyatlarından səmərəli istifadə olunması istiqamətində uzun illər ərzində çoxlu sayda elmi-tədqiqat işləri aparılmışdır. Bu tədqiqatların nəticələri göstərmişdir ki, bitkilərin suvarma rejimləri əsas etibarı ilə ərazinin torpaq-iqlim xüsusiyyətlərindən, suvarma texnikası və texnologiyasından, tətbiq olunan aqrotexniki fonddan, suvarma suyunun keyfiyyətindən və digər amillərdən asılıdır. Bu amillərin hər hansı birinin dəyişməsi suvarma rejiminə və son nəticədə bitkilərin məhsuldarlığına təsir edir. Suvarma rejiminin təyin edilməsindən uzun illər keçdiyindən yeni təsərrüfatçılıq şəraitində su ehtiyatlarından daha səmərəli istifadə etmək üçün kənd təsərrüfatı bitkilərinin suvarma rejiminin yenidən işlənməsinə ehtiyac yaranmışdır. Azərbaycan Respublikasının mövcud su ehtiyatlarından maksimum səmərəli istifadə olunması məqsədi ilə kənd təsərrüfatı bitkilərinin suvarılmasında tətbiq üçün yeni texniki-iqtisadi əsaslandırılmış suvarma rejimlərinin hazırlanması və tətbiqi böyük əhəmiyyətə malikdir. Yuxarıda göstərilənləri və respublikada su ehtiyatlarının məhdud olmasını nəzərə alaraq Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutu tərəfindən mövcud suvarma rejimləri hazırlanmışdır. Buna misal olaraq aşağıda Ağcabədi və Bərdə rayonlarında faktiki əkilən bitkilər üzrə suvarma normaları göstərilmişdir.

**Ağcabədi və Bərdə rayonlarında qəbul olunmuş suvarma norması**

| Rayon | Əkin növü | Hektar | Suvarma rejiminə uyğun 1 hektara düşən orta suvarma norması (bir dəfə üçün, m$^3$) |
|---|---|---|---|
| Ağcabədi | Pambıq | 11850 | 1100 |
| | Dənli | 19800 | 980 |
| | Yem bitkisi | 22690 | 1100 |
| | Bostan | 1432 | 900 |
| | Çoxillik | 2980 | 1100 |
| | Həyətyanı | 4248 | 900 |
| Bərdə | Pambıq | 11000 | 1050 |
| | Dənli | 12100 | 950 |
| | Yem bitkisi | 31460 | 1100 |
| | Bostan | 2640 | 1000 |
| | Çoxillik | 1000 | 1000 |
| | Həyətyanı | 5200 | 1000 |

Əkin sahələrində fermerlər tərəfindən suvarmaya hazırlıq işlərinin: şumlama və hamarlama işlərinin vaxtında aparılmaması, əkin sahələrinin ox arxlarına bölünməməsi, suvarmanın vaxtında və rejimlərə uyğun təşkil edilməməsi səbəbindən suvarma suyunun əksər hallarda normadan 2-3 dəfə artıq istifadə olunmasına səbəb olur.

**Fermerlərə tövsiyə**

Aşağıdakılara riayət olunarsa, suvarma rejimində nəzərdə tutulan normalara uyğun su istifadə oluna bilər:

1) Fermerlər tərəfindən əkin aparılacaq sahələrin planlaşdırılması barədə məlumatın əkindən qabaq SİB-lərə təqdim edilməsi;
2) Sahələrdə vaxtında şumlama və malalama işlərinin aparılması;
3) Lazer texnologiyası vasitəsilə sahələrdə hamarlama işlərinin aparılması;
4) Sahələrin ox arxlarına bölünməsi;
5) Əkinlərin optimal müddətdə əkilməsi;
6) Gecə suvarmasının tətbiq edilməsi;
7) Suvarma qrafiklərinin tərtib edilməsi üçün SİB-lərə müraciət edilməsi;
8) Növbəlilik qrafikinə əməl edilməsi;
9) Əkin sahəsi suvarılarkən suvarmaya nəzarət edilməsi;